# Etimad

## Onu doğrultmaq üçün nə etməliyik...

**Hər dəfə Soltan müəllimlə görüşəndə qazanılan uğurlardan, görülən işlərdən elə fərəhlə danışır ki, sevinməyə bilmirsən. Biz də öz növbəmizdə bu sevinci bir jurnalist olaraq dəyərli oxucularımızla bölüşməyə səy göstəririk. Bərdəyə bu dəfəki səfərimizdə də elə oldu. Soltan müəllimin məsləhəti ilə özünün yüksək memarlıq üslubu ilə seçilən 4 saylı uşaq incəsənət məktəbinə baş çəkdik.**

Kollektivin rəhbəri Cəmilə xanımla səmimi söhbətimiz oldu. Cəmilə xanım ilk baxışdan bizdə xoş təəssürat doğurdu, işgüzar, qətiyyətli bir rəhbər təsiri bağışladı. Məktəbin fəaliyyətilə yaxından tanış olduqdan sonra fikrimizdə yanılmadığımıza bir daha əmin olduq. Orucova Cəmilə Soltan qızı 1966-cı ildə Bərdədə, ziyalı ailəsində anadan olub. Eyni vaxtda həm orta məktəbdə, həm də musiqi məktəbində təhsil alıb. Şuşa Musiqi Texnikumunu fərqlənmə diplomu ilə bitirib. Bakı Musiqi Akademiyasının məzunudur.

1991-2007-ci illərdə 1 saylı musiqi məktəbində fortepiano müəllimi işləyib. 2007-2009-cu illərdə həmin məktəbin direktoru vəzifəsində çalışıb. 2009-cu ilin sentyabrından 4 saylı uşaq incəsənət məktəbinin direktorudur. - Məktəbimizdə uşaqlar 9 ixtisas üzrə təhsil alırlar, - deyə Cəmilə xanım kollektivin işindən danışır. Bu ildən ixtisas siniflərinin sayını 10-a çatdırmışıq. Burada 240 nə-







**Bərdədə qabaqcıl kollektivlər çoxdur. Amma nə danmalı, rayon mədəniyyət və turizm şöbəsi onların hamısından seçilir. Bir qayda olaraq şöbənin həyata keçirdiyi tədbirlər öz aktuallığı, dolğunluğu və rəngarəngliyi ilə diqqət çəkir. Təbii ki, bütün bunlar ilk növbədə Bərdə Rayon Mədəniyyət və Turizm Şöbəsinin müdiri, təcrübəli mədəniyyət xadimi Soltan Həsənovun vəzifəsinə məsuliyyət və yaradıcılıqla yanaşmasının təzahürüdür.**

fər şagirdin təlim-tərbiyəsi ilə 98 nəfər müəllim məşğul olur. Onlardan 2 nəfəri ali, qalanları orta ixtisas təhsillidir. Məktəbimizin maddi-texniki bazası yüksək səviyyədədir. 4 mərtəbəlidir. 30 sinif otağından ibarətdir. İstilik sistemi, xüsusi inventar və avadanlıq, musiqi alətləri ilə tam təmin olunub. Böyük akt zalımız var. Burada müxtəlif tədbirlər, konsertlər və s. keçirilir. İşimizi lazımi səviyyədə qurduğumuzdan müəyyən uğurlara da imza atmışıq.

Festival və müsabiqələrə fəal qoşuluruq. Üçüncü sinif şagirdi Cəlal Əliyev Astarada keçirilən uşaq muğam müsabiqəsində dördüncü dərəcəli diploma layiq görülüb. Məktəb rayon tədbirlərində yaxından iştirak edir. Onun "N" saylı hərbi hissədə konsert proqramı xüsusi maraqla qarşılanmışdır.

Bərdəyə təşrif buyuran hər bir qonaq mütləq məktəbimizə də baş çəkir. Bu mənada, möhtərəm nazirimiz Əbülfəs Qarayevlə görüşümüz kollektivdə böyük təəssürat doğurmuş, bizi daha yaxşı çalışmağa ruhlandırmışdır. Cənab Ə.Qarayev ayrı-ayrı müəllim və şagirdlərlə söhbət apardı, tədrisin vəziyyəti ilə maraqlandı, müvafiq tövsiyələrini verdi.





Biz həmçinin Mingəçevir şəhərində təşkil olunan baxış-müsabiqədə həm böyük, həm də kiçik yaş qrupu üzrə təmsil olunmuşuq.

Təcrübə mübadiləsi məqsədilə Naftalan uşaq musiqi məktəbi ilə müntəzəm əlaqə saxlayır, görüşlər keçiririk. Bu cür görüşləri respublikanın digər musiqi kollektivləri ilə də qurmağı planlaşdırırıq. Uğurlarımızın qazanılmasında qabaqcıl müəllimlərin rolu danılmazdır. Onlardan Maarif Məmmədovun (xanəndəlik), İradə Səfərovanın (pianino), Süleyman Ağayevin (qarmon), Gültəkin Məmmədovanın (skripka), Lamiyyə Əliyevanın (nəzəriyyə), Sona Rəhimovanın (qarmon), Xavər Rzayevanın (pianino), İbad Rzayevin (qarmon), Natəvan İbrahimlinin (xanəndəlik), Tərlan Rzayevanın (kamança), Sabiq Səfərovun (qarmon) və başqalarının adlarını çəkmək istərdim.

**Bütövlükdə kadr potensialımız, bizə yaradılan şərait, göstərilən etimad belə deməyə imkan verir ki, sabaha nikbinliklə baxırıq. İnanırıq ki, tezliklə yetirmələrimizin soraqları ayrı-ayrı bölgələrdən, müxtəlif musiqi kollektivlərindən gələcək...**

● **E.HƏSƏNQIZI**

